# Şəkər sənayesinin uğurları

**Dövlət müstəqilliyimizin formalaşdığı bir zamanda xalqımızın maddi-rifah halının yaxşılaşdırılması, strateji əhəmiyyətli zəruri ərzaq məhsullarına olan tələbatın ödənilməsi iqtisadi siyasətimizin əsas istiqamətlərindən idi.**

**Sosial-iqtisadi həyatımızın bütün sahələrində olduğu kimi, aqrar sahəsində də həyata keçirilən iqtisadi islahatlar, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunması üçün real zəmin yaranmışdır.**

**Bazar münasibətlərinə keçid şəraitində dövlətimizin aqrar siyasətinin aparıcı istiqaməti daxili istehsal hesabına ərzaq təhlükəsizliyinə nail olmaqdan ibarət idi. Buna nail olmaq üçün respublikamızda əlverişli torpaq, iqlim şəraiti və çox böyük daxili imkanlar vardır.**

Azərbaycan Respublikası Ərzaq Təhlükəsizliyi Proqramında göstərilirdi ki, "Ərzaq təhlükəsizliyi insan həyatının başlıca amili olmaqla əsas insan hüquqlarından biridir. Ona görə də bu hüquqların təmin edilməsi Azərbaycan Respublikası hökumətinin mühüm vəzifələrindən sayılır".

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 11 fevral 2004-cü il tarixdə imzaladığı fərmanla "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul olunmuşdur. Bu proqrama uyğun respublikamız iqtisadi rayonlarda mövcud potensialdan səmərəli istifadə etməklə, regionların sosial-iqtisadi inkişafını yüksəltmək yoluna qədəm qoymuşdur.

Həyata keçirilən uğurlu və xarici siyasət sayəsində ölkəmizdə münbit biznes mühiti formalaşmış, iqtisadiyyatımızın müxtəlif infrastrukturlarına investisiya qoyuluşları əsaslı surətdə artmışdır.

Azərbaycanın qida sənayesində aparıcı rola malik "Azərsun Holdinq" Şirkətlər Qrupu regionlarda mövcud əmək ehtiyatlarından, təbii, iqtisadi potensiallardan səmərəli istifadə etməklə yeni iş yerlərinin və ümumiyyətlə, Azərbaycanın müasir Aqrar Sənaye Kompleksinin yaradılmasına layiqli töhfələrini verməkdədir.

Bu istiqamətdə on il bundan əvvəl açılışı 23 mart 2006-cı il tarixdə — Novruz bayramı günlərində möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən gerçəkləşdirilən İmişli Şəkər zavodunun istismara verilməsi ilə Azərbaycanın Milli Şəkər Sənayesinin möhkəm əsası qoyulmuşdur. Respublikamızın Kür-Araz qovşağına daxil olan rayonlarında əkinçiliyin, heyvandarlığın və bağçılığın intensiv əsaslarla inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaradılmışdır. Əkinçilər məhsuldar toxumdan, mineral gübrələrdən, aqrotexnikanın son nailiyyətlərindən, yeni suvarma qurğularından istifadə etməklə, şəkər çuğundurunun məhsuldarlığının artırılmasına şərait yaratmaqla bərabər, Aran iqtisadi rayonunda əkinçiliyin ən böyük problemi olan torpağın şorlaşmasının qarşısının alınmasında təqdirəlayiq işlər həyata keçirirlər.

Respublikamızın torpaq-iqlim şəraiti şəkər çuğundurunun yetişdirilməsi üçün tam əlverişli olsa da, sovetlər ittifaqı zamanında bu vacib texniki ərzaq bitkisi ölkəmizin əkin dövriyyəsinə daxil edilməmişdir. Halbuki keçmiş ittifaqın bir çox respublikalarından fərqli olaraq Azərbaycanda şəkər sənayesini inkişaf etdirmək üçün daha əlverişli şərait vardır. Bu məqsədlə ölkəmizdə şəkər çuğundurunun əkilib-becərilməsinə 1990-cı ilin əvvəllərindən etibarən başlanmışdır.

Bütün bunlarla yanaşı, yerli emal müəssisələri olmadığından torpaq mülkiyyətçilərinin min bir zəhmət bahasına yetişdirdikləri şəkər çuğunduru məhsulu emal məqsədilə qonşu Türkiyə və İranın şəkər zavodlarına göndərilir, bu da istehsalın maya dəyərini artırmaqla şəkər çuğundurunun emal qalıqları olan və heyvandarlıqda qiymətli yem hesab olunan cecə və melsadan yararlana bilmirdi.

Respublika əhalisinin şəkərə olan tələbatı idxal hesabına ödənilirdi ki, bu da hər il xeyli miqdarda valyuta ehtiyatlarının sərf olunmasını tələb edirdi.

Ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə inşasına başlanmış İmişli Şəkər Zavodunun istismara verilməsi ilə respublikamızın şəkərə olan tələbatını tam ödəməklə, intensiv texnologiyaya əsaslanan mədəni əkinçiliyin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Şəkər çuğunduru kənd təsərrüfatı bitkiləri içərisində ölkə iqtisadiyyatına verə biləcəyi səmərəyə, eləcə də əmək ehtiyatlarından istifadə həcminə görə xüsusi yer tutur. Sənaye təməlli bu vacib texniki ərzaq bitkisinin əkin dövriyyəsinə daxil olması artıq dünyanın mütərəqqi əkinçilik sistemində əkinçiliyin "onurğa sütunu" kimi qəbul olunmuş növbəli əkin sisteminin elmi əsaslarla tətbiq olunmasını təmin etməkdədir.

Ölkə Prezidenti cənab İlham Əliyevin on il bundan əvvəl İmişli Şəkər Zavodunun təntənəli açılışı zamanı dediyi sözlər bir daha yada düşür. Möhtərəm Prezidentimiz qürurla demişdir: "Zavod xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə tikilməyə başlamışdır. Mən xatırlayıram, bir neçə il bundan əvvəl belə bir məsələ ortaya çıxanda ulu öndər Heydər Əliyev məsləhət görmüşdü ki, bu zavod İmişlidə tikilsin. Bu gün çox şadam və xoşbəxtəm ki, bu zavod artıq fəaliyyətə başlayır, Azərbaycanın hərtərəfli iqtisadi inkişafına, kənd təsərrüfatının inkişafına, regionların inkişafı proqramının həyata keçirilməsinə böyük təkan, böyük kömək olacaqdır. Zavodda ən qabaqcıl texnologiyalar mövcuddur. Burada dünyada mövcud olan ən yüksək səviyyədə şəkər istehsalı təmin ediləcəkdir, çünki şəkər istehsalı çox mürəkkəb bir prosesdir və onun qiyməti, müxtəlif bazarlara daxil olması onun məhsulunun keyfiyyətindən çox asılıdır. Ona görə şəkərin keyfiyyəti çox böyük əhəmiyyət daşıyır. Bu gün müəssisə, laboratoriya ilə tanış olarkən bir daha gördüm ki, burada ən yüksək dünya səviyyəsində şəkər istehsal ediləcəkdir. Zavoda, onun tikintisinə milyonlarla dollar sərmayə qoyulmuşdur. Bu da onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox məqbul bir yerdir".

Dövlət başçısı demişdir ki, 1990-cı ilin ortalarında Azərbaycana yalnız neft-qaz sektoru maraq doğururdu, amma bu gün qeyri-neft sektoruna da böyük sərmayələr qoyulur. Kənd təsərrüfatında yeni sənaye sahələrinin inkişafına sərmayə qoyulur və bu, çox sevindiricidir. Bilirsiniz ki, bizim iqtisadi siyasətimizin



əsas məqsədi də məhz bundadır: Qeyri-neft sektorunu inkişaf etdirmək, iqtisadiyyatı şaxələndirməklə yeni istehsal sahəsi yaratmaq lazımdır ki, daxili tələbat yerli istehsal hesabına təmin edilsin. Şəkər zavodunun tikintisi bizim iqtisadi siyasətimizin əsas istiqamətlərini özündə əks etdirir. Yeni iş yerlərinin açılması barədə artıq qeyd olundu.

Zavodun təntənəli açılışında çıxış edən "Azərsun Holdinq" Şirkətlər Qrupunun prezidenti Abdolbari Goozal qürurla danışaraq dedi ki, zavodun inşasına 2003-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə başlanmışdır. Müəssisənin işə salınması kənd təsərrüfatının digər sahələrinin də inkişafına, işsizliyin aradan qaldırılmasına kömək edəcəkdir.

Zavodda tikinti-quraşdırma işlərində çalışanların 90 faizini Azərbaycan vətəndaşları, 10 faizini isə Türkiyə, Ukrayna, Çexiya, Polşa, Almaniya və İran mütəxəssisləri təşkil etmişdir. 2006-cı ildə Azərbaycanda şəkər tozu istehsalının 180-200 min ton olmasını nəzərə alsaq, zavod bu tələbatı tam ödəyəcək və xaricə də məhsul ixrac olunacaqdır.

Abdolbari Goozal çıxışına davam edərək bildirdi ki, İmişli Şəkər Zavodu 27 aya tikilmişdir. Tikinti müddətində gündəlik 1800-2000 nəfər çalışmışdır. 5 min avtomatik nəzarət nöqtəsi var. Turbin generatorunun gücü 12 meqavatdır. İlk mərhələdə gündə 6000 ton çuğundur emal ediləcək, 900 ton şəkər tozu istehsal olunacaqdır. Müəssisəyə 87 milyon dollar sərmayə qoyulmuşdur.

Keçən il dekabrın 21-də "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Abdolbari Goozal şirkətlər qrupunun yaranmasının 24-cü ilini əks etdirən filmin təqdimatına və 2015-ci ilin yekunlarına həsr olunmuş tədbirdə qürurla demişdir: "İndi filmdə gördüyünüz bu günləri, bu inkişafı ümummilli liderimiz ulu öndər Heydər Əliyev o zamanlar görür, Azərbaycanın gələcəyini mənə danışırdı. Ölkəm zəngindir, bir gün burada yüksək binalar tikiləcək, hər tərəf inkişaf edəcək, - deyirdi. Məni inandırmağa çalışırdı ki, sən də fabrik qur, işlə. Bu günü eyniylə mənə tərif edirdi. Filmə baxanda onu hörmətlə xatırladım. Allah ona rəhmət eləsin. Nə qədər sevgi və zövqlə dolu idi! Hələ rəhmətliklə Naxçıvanda görüşdüyüm zaman... Baxmayaraq ki, vəziyyət çox ağır idi, hər tərəf pərişan idi, amma orada içində enerji ilə dolu, ümid dolu bir ağsaqqal oturardu və bu böyük şəxsiyyət insanları motivə edirdi. Ətrafda, dağda güllələr atılırdı. Yolda biz gələrkən dayandıq ki, kafedə çay içək, amma top səsi gəldi, hər kəs bir tərəfə dağıldı. Orada sanki heç bir şey yox imiş kimi çox böyük bir enerji ilə, müdrikliklə, insana ümid, stimul verən rəhmətlik Heydər Əliyev var idi. Davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev də atasından aldığı layihələri çox böyük uğurla davam etdirdi, Azərbaycanı bu günə gətirdi.

Təbii ki, bizim qurduğumuz sənayelər xoşniyyət və səyimizlə olub, amma bu nailiyyətlər həm də Azərbaycan hökumətinin bizə yaratmış olduğu şəraitdən irəli gəlir" .

Yeri gəlmişkən xatırlayırıq ki, Azərbaycan Respublikası vaxtilə şəkər idxal edən ölkədən indi ixrac edən ölkəyə çevrilmişdir. Hazırda bu nəhəng müəssisədə şəkər tozu ilə birlikdə kəllə qənd, bitki yağları, spirt emalı, qarışıq yem zavodları da fəaliyyət göstərir. 2006-cı ildə zavod fəaliyyətə başlayanda burada cəmi 417 nəfər fəaliyyət göstərirdisə, hazırda 1500 nəfərə qədər adam işlə təmin olunmuşdur. Podratçı şirkətlərin işə cəlb edildiyini də qeyd etsək, hazırda bu sahədə 400-500 adam çalışmaqdadır. İmişli Şəkər Zavodunu şəkər çuğunduru ilə təmin etmək üçün təxminən bölgələrdə 7 min hektarda şəkər çuğunduru əkilib becərilir və yığılır. Bu sahədə də hər hektara 2 ailə başçısı cəlb edilməsini nəzərə alsaq, deməli, 14 min ailə bu sahədən bəhrələnir.

Şəkər zavodunun tərkibində bitki yağları və qarışıq yem zavodlarının istifadəyə verilməsi və bu zavodların öz fəaliyyətlərini yerli xammal hesabına həyata keçirməsi rayon ərazisində əkinçiliyin genişləndirilməsinə şərait yaratmışdır. Əkinçiliyin inkişafı, kənd yerlərində məşğulluğun artması və aqrar sahədə çalışan əhali üçün gəlir mənbəyinin genişləndirilməsi ilə yanaşı, ölkənin ərzaq təhlükəsizliyinin yüksəldilməsində də həlledici əhəmiyyətə malikdir. Digər tərəfdən isə bu zavodlarda buğda, arpa, qarğıdalı kimi kənd təsərrüfatı məhsullarının qəbulu, əhalinin aqrar sahədə çalışan hissəsini istehsal etdiyi məhsulları reallaşması üçün kənarda satış bazarı axtarmaq problemindən azad etməsinə şərait yaratmışdır. Bütün bunlar ötən təsərrüfat ilində də öz bəhrəsini vermişdir.

Rayon icra hakimiyyətinin 2015-ci ildəki fəaliyyəti ilə bağlı rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyevin hesabat məruzəsində qeyd edilir ki, İmişli Şəkər Zavodu ötən ildə 312, 340, 100 ton şəkər tozu istehsal etmiş, o cümlədən başqa sifarişçiyə məxsus xammaldan 164, 646 ton şəkər tozu emal olunmuşdur.

Ümumiyyətlə, İmişli Şəkər zavodu 2015-ci ildə 103, 423, 200 manatlıq məhsul istehsal etmiş və xidmətlər göstərmişdir ki, bu da həm sənaye məhsulunun, həm də rayon üzrə ümumi məhsul buraxılışının əsasını təşkil edir. Bu, kollektivimizin İmişli Şəkər zavodunun on illik yubileyinə ən layiqli töhfəsidir.

Ən başlıcası, əldə etdiyimiz bütün nailiyyətlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarından irəli gələn vəzifələrin layiqincə yerinə yetirilməsi nəticəsində reallaşdırılmışdır. Biz həmişə Azərbaycan Prezidentinin daxili və xarici siyasətini ürəkdən dəstəkləyərək yeni-yeni layihələrin müvəffəqiyyətlə həyata keçirilməsində Azərbaycan Prezidentinə dəstək olacağıq.

**Səməd İSMAYILOV,**
**İmişli Rayon "Xalq sözü" qəzetinin baş redaktoru.**